Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 215 (1343) 22 noyabr - 23 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# MÜSTƏQİLLİYİMİZİN GÖZƏL NÜMUNƏSİDİR BU ŞƏHƏR...

(əvvəli ötən saylarımızda)

**Xarakterizə olunan dövrdə Heydər Əliyev Mərkəzinin ekspozisiya zalı tamamilə yenidən tərtib olunmuş, Mərkəzin əməkdaşları tərəfindən rayonun bütün təhsil və mədəniyyət müəssisələrində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyi ilə əlaqədar hazırlanmış tədbirlər planına uyğun olaraq müxtəlif tədbirlərin keçirilməsi təmin edilmiş, təhsil müəssisələrində Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş mühazirələr oxunmuşdur.**

2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə əlaqədar silsilə tədbirlərin həyata keçirilməsi, əlamətdar və tarixi günlərin, milli və dövlət bayramlarının, yubiley tədbirlərinin yüksək səviyyədə qeyd edilməsi təmin olunmuş, məzmunlu və rəngarəng tədbirlər həyata keçirilmişdir.

### *Uğurlu nəticələr*

2016-cı ilin 9 ayı ərzində 37 respublika səviyyəli birincilik, çempionat və turnirlərdə 335 rayon idmançının iştirakı təmin edilmişdir. Həmin yarışlarda idmançılar 14 dəfə I yeri, 11 dəfə II yeri və 12 dəfə III yeri tutmuş, ümumilikdə 37 medal qazanmışlar. Bu da 2015-ci ilin müvafiq dövründə qazanılan medallardan 5 medal artıqdır.

İdmançı Şəhmir İbadov 16 sentyabr 2016-cı ildə Parataekvando üzrə Varşavada keçirilən Avropa Çempionatında II yeri, güləşçi Asxab Həmzətov isə Tbilisidə keçirilən sərbəst güləş üzrə yeniyetmələr arası Dünya birinciliyində III yeri tutmuşdur.

2016-cı ilin doqquz ayında rayon polis şöbəsi tərəfindən 162 cinayət hadisəsi qeydə alınmış, onlardan 89,0 faizinin üstü açılmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlərin sayı 23 fakt azalmış, kriminogen durum nəzarətdə saxlanılmışdır.



> **"...Azərbaycan müasir dövlətdir, iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Amma, eyni zamanda, biz sosial dövlətik. Sosial dövlət o deməkdir ki, insan amili, Azərbaycan vətəndaşı, onun maraqları, onun rifahı siyasətimizin mərkəzindədir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

### *Bələdiyyələrin fəaliyyəti canlanır*

Hesabat dövründə bələdiyyələr fəaliyyətlərini mövcud sosial-iqtisadi problemlərin və yerli əhəmiyyətli məsələlərin həll olunması, abadlıq və quruculuq işlərinin aparılması istiqamətində qurmuşlar. "Bir bələdiyyə-azı bir layihə" çərçivəsində Püştətala, Meşəşambul, Şərif, Yeni Şərif, Qullar və Tülü bələdiyyələri tərəfindən kəndarası yollarda 3,5 km məsafədə asfalt örtük təmir edilmişdir. Digər bələdiyyələr tərəfindən kəndarası yollara (AZKİLL-lə birlikdə) 60 km məsafədə qum-çınqıl tökülmüş, 8,1 km uzunluğunda yeni su xətləri çəkilmiş, 22 km uzunluğunda su kanalları və arxlar, sosial təyinatlı və inzibati binalar təmir edilmiş, 5 su keçidi salınmış, abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

### *Vətəndaş müraciətləri, qəbullar və görüşlər*

Hesabat dövründə RİHB aparatında sənədlərlə aparılan işin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmış, RİH başçısı yanında Şuranın 17 yığıncağı keçirilmiş, yığıncaqlarda müxtəlif sahələr üzrə 31 məsələ müzakirə olunmuşdur.

2016-cı ilin 9 ayında RİH başçısı tərəfindən aparatda 687 nəfər və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 112 nəfər artıq vətəndaş qəbul edilmişdir. Qəbula gələn vətəndaşların haqlı müraciətlərinin həllinə maksimum köməklik göstərilmiş, qanundan kənar tələb və əsassız şikayətlər üzrə isə ətraflı izahatlar verilmişdir.

Əhalini daha çox narahat edən, eləcə də kollektiv müraciətlərdə qaldırılan məsələlərin həlli, yaşayış məntəqələrinin abadlaşdırılması, enerji və içməli su təminatının yaxşılaşdırılması, kənd yollarının asfaltlaşdırılması və digər sosial problemlərin həlli rayon icra hakimiyyəti başçısı aparatında vətəndaş müraciətləri ilə aparılan işlərin prioritet istiqamətlərini təşkil etmiş, belə müraciətlərin baxılmasına xüsusi diqqət göstərilmişdir.

2016-cı ilin 9 ayında RİHB aparatına vətəndaşlardan 554 yazılı müraciət daxil olmuşdur. Daxil olan vətəndaş müraciətlərinin 96,6-nə (535 müraciətə) bilavasitə rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri tərəfindən baxılmışdır.



Bütün hallarda yazılı müraciətlərə baxılmasının nəticələri barədə vətəndaşların ünvanına cavab göndərilməsi təmin olunur. Hesabat dövründə RİH-ə vətəndaşlar tərəfindən telefonla daxil olmuş 18 müraciətin hər birinə operativ baxılmış, nəticəsi barədə məlumat verilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasından nəzarət qaydasında göndərilən 11 müraciətə vaxtında obyektiv baxılmaqla Prezident Administrasiyasına və müraciət müəlliflərinə cavab verilməsi təmin edilmişdir.

Hesabat dövründə RİH başçısı tərəfindən rayonun qəsəbə və kəndlərində 31 səyyar qəbul-görüşlər keçirilmiş, bu görüşlərdə 3005 nəfər əhali iştirak etmiş, 134 nəfər vətəndaş tərəfindən 136 təklif və tənqidi qeydlər söylənilmişdir. Həmin görüşlərdə elektrik veriliş xətlərinin yenidən qurulması, enerji təchizatının yaxşılaşdırılmasl barədə irəli sürülən 32 təklif prioritet təşkil edir. Əhalinin içməli su təchizatı, artezianların qazılması barədə 24 təklif, kənd təsərrüfatı istehsalının inkişafı, torpaqlardan istifadə, əkin sahələrinin suvarılmasının təşkilinə dair 17 təklif irəli sürülmüşdür ki, müvafiq olaraq ikinci, üçüncü dərəcəli vacib sosial-iqtisadi problemlər kimi xüsusi diqqət tələb edir.

**Səyyar qəbullarda söylənilmiş təklif və tənqidi qeydlərin 67-si icra olunmuş, 18 təklif qismən icra olunmuş, 51 təklifin icrası cari və növbəti illər üçün perspektiv tədbirlər siyahısına daxil edilmişdir.**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ